2003 2017

Sürətli inkişaf, müstəqil siyasət və qüdrətli dövlət quruculuğu mərhələsi

Müstəqilliyin polad sipəri

"Bakı-Tbilisi-Qars" Azərbaycan iqtisadiyyatının yeni lokomotivi olacaq

Bu günlərdə Azərbaycan dövlətinin həyatında çox əhəmiyyətli və əlamətdar hadisələr yaşanmaqdadır. Bir müddət əvvəl Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri-Çıraq-Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Sazişin imzalanması, oktyabrın 30-da isə Bakı-Tbilisi-Qars dəmir yolunun açılış mərasiminin keçirilməsi Azərbaycanın qüdrətinin bariz təcəssümüdür.

Bir neçə gündür ki, müzakirə mövzusuna çevrilən bu tarixi hadisə ilə bağlı birmənalı fikirlər səsləndirilir. İqtisadçılar, siyasətçilər, beynəlxalq ekspertlər hesab edirlər ki, Bakı-Tbilisi-Qars dəmir yolu dəhlizi regional ticarətin inkişafına böyük təkan verəcək, iqtisadi artım üçün əlavə potensial yaradacaq və Cənubi Qafqaz regionunun sabit, təhlükəsiz inkişafına stimul olacaq. Həmsöhbət olduğumuz Milli Məclisin deputatları da hesab edirlər ki, qeyri-neft sektorunun inkişafını prioritet kimi qarşıya qoymuş Azərbaycan üçün bu layihə ölkə iqtisadiyyatının lokomotivi rolunu oynayacaq.

Prezident İlham Əliyevin iradəsi ilə reallaşan layihə

Siyavuş NOVRUZOV,
Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, YAP-ın icra katibinin müavini:

- Bakı-Tbilisi-Qars beynəlxalq əhəmiyyətli bir layihədir. Bunun siyasi və beynəlxalq əhəmiyyəti iqtisadi əhəmiyyətindən daha böyükdür. Yəni iqtisadi baxımdan başqa sahələrdən də ölkə üçün gəlir əldə etmək olur. Amma siyasi və beynəlxalq baxımdan bu layihə çox mühüm bir addımdır. BTQ-nin açılış mərasimində Orta Asiya ölkələrinin iştirakı onu göstərir ki, bu, tarixi əhəmiyyətə malik bir layihədir. Bu layihənin müəllifi ümummilli lider Heydər Əliyevdir. İstər Bakı-Tbilisi-Ceyhan layihəsinin, istər "Cənub qaz dəhlizi" və istərsə də digər layihələrin müəllifi ümummilli lider Heydər Əliyevdir. Onun uzaqgörən siyasəti nəticəsində bu addımlar atılıb və Prezident İlham Əliyevin iradəsi nəticəsində bu layihələr reallaşıb. Bir çoxları, bəzi xarici dairələr Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisinə inanmırdılar. Onlar hesab edirdilər ki, bunun reallaşması mümkün deyil. Lakin üç ölkənin birliyi sübut etdi ki, güclü iradə, qarşılıqlı dəstək olan yerdə bütün işləri görmək mümkündür. Bu layihə Azərbaycan, Gürcüstan və Türkiyə arasında münasibətləri daha da möhkəmləndirəcək.

Digər tərəfdən, bu layihə region ölkələrinin birliyi, təhlükəsizliyi və əməkdaşlığına xidmət edən mühüm bir layihədir. Hesab edirəm ki, keçmiş sovet məkanından da bu layihələrə qoşulanlar olacaq. Bu dəmir yolunun iqtisadi əhəmiyyəti də olduqca böyükdür. Həm yük, həm də sərnişin daşımaları ilə bağlı ölkəmiz gəlir əldə edəcək. Bu layihə həmçinin turizm potensialının genişlənməsinə xidmət edəcək.

Prezident İlham Əliyevin söylədiyi kimi, bu dəmir yolu Avrasiyanın nəqliyyat xəritəsinin önəmli hissəsinə çevrilir. BTQ xəttinin fəaliyyəti nəticəsində yol boyunca yerləşən ölkələr arasındakı ticarət dövriyyəsi artacaq. Qarşılıqlı sərmayə qoyuluşu da yüksələcək. Bu yoldan istifadə edən ölkələr arasındakı əməkdaşlıq dərinləşəcək. Bu yol sabitliyə, təhlükəsizliyə xidmət göstərəcək. Onun istifadəsi zamanı turizmin inkişafı geniş vüsət alacaq.

Bakı-Tbilisi-Qars dəmir yolunun açılışından sonra Azərbaycanı istəməyən qüvvələr tərəfindən müəyyən qarayaxma, böhtan kampaniyasının olacağı, o cümlədən Azərbaycan daxilində olan müxalifətin bu kampaniyaya qoşulacağı gözlənilir. Bu layihənin açılış mərasiminə bir neçə gün qalmış mitinqin keçirilməsi bunun bariz nümunəsidir. Azərbaycan bu qədər böyük iş görür, Ermənistanı tamamilə blokadaya alır, ancaq müxalifət erməni lobbisinin təhriki ilə müxtəlif şüarlar altında mitinq keçirir. Amma buna baxmayaraq, ölkə Prezidentinin qətiyyəti, iradəsi və ölkə rəhbəri ilə xalqın birliyi gələcəkdə də bu cür qlobal layihələrin həyata keçirilməsinə dəstək verəcək.

Azərbaycan Prezidentinin atdığı hər addım xalqın mənafeyinə hesablanıb. Azərbaycan dünyada öz sözünə əməl edən dövlət, onun lideri isə sözünün üstündə duran Prezident kimi qəbul olunur və dəstəklənir.

"Bakı-Tbilisi-Qars" Azərbaycan tarixində parlaq səhifə açdı

Ziyad SƏMƏDZADƏ,
Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri:

- Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi Azərbaycanın tarixində ən parlaq hadisələrdən biridir. Bu layihənin reallaşması müstəqil Azərbaycanın əldə etdiyi böyük uğurlardandır.

Hər bir ölkənin özünün iqtisadi təhlükəsizliyini təmin etməsi üçün alternativ marşrutları olmalıdır. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin açılması Azərbaycan iqtisadiyyatının şaxələndirilməsini daha da sürətləndirəcək, ölkəmizin nəqliyyat və iqtisadi əlaqələrinə yeni keyfiyyət dəyişiklikləri gətirəcək. Bu layihə Azərbaycanın regionda strateji tərəfdaş kimi rolunun daha da artmasına xidmət edəcək. Bütövlükdə bu dəmir yolu xətti Azərbaycanın dünyada rəqabətədavamlı ölkə kimi mövqeyini möhkəmləndirəcək.

Bakı-Tbilisi-Qars dəmir yolu layihəsi Türkiyəyə və Şərqi Avropaya, Aralıq dənizinə çıxışı təmin edir. O, həm də Avropaya qədər uzanacaq və Transxəzər beynəlxalq daşımalarında əsas təməl layihələrdən biri olacaq. Bu yeni dəmir yolu ölkələrimizin nəqliyyat və logistik imkanlarının inkişaf etdirilməsinə töhfə verəcək.

Qərbdən Şərqə və əks istiqamətdə yüklərin daşınması mərkəzində Azərbaycan dayanır. Bəzi mənfur qüvvələr, xaricdəki erməni lobbisi bu layihənin gerçəkləşməsini istəmirdi. Onlar bu istiqamətdə maneələr yaratmağa çalışırdılar. Ancaq Azərbaycan Prezidenti İlham Əliyevin müstəqil siyasəti, əzmkarlığı, fədakarlığı bu yolun çəkilməsində mühüm rol oynadı. Qədim İpək yolunun bərpasında mühüm həlqə olan Bakı-Tbilisi Qars dəmir yolunun açılması Azərbaycan üçün daimi kapitaldır, gəlir mənbəyidir, ictimai, iqtisadi, siyasi sabitliyin ən vacib amillərindən biridir.

İlham Əliyev Azərbaycanı qlobal tranzit və logistika məkanına çevirir

Nəsib MƏHƏMƏLİYEV,
Milli Məclisin deputatı:

- Bu gün Azərbaycan özünü təkcə neft və qaz ixrac edən ölkə kimi deyil, həm də Şərqi Qərblə, Şimalı Cənubla birləşdirən nəqliyyat qovşağı və Logistika Mərkəzi kimi təqdim edir. Son illər ölkəmizin nəqliyyat infrastrukturunda həyata keçirilən yenidənqurma işləri - Bakıda və ölkə regionlarında beynəlxalq hava limanlarının, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri istiqamətində beynəlxalq əhəmiyyətli avtomobil yollarının tikintisi və dəmir yolu xətlərinin yenilənməsi bu sahənin inkişafına təkan verib.

Reallıq ondan ibarətdir ki, son illər ölkəmizin nəqliyyat infrastrukturunda həyata keçirilən yenidənqurma işləri, beynəlxalq layihələr, qəbul olunan dövlət proqramları Asiya ilə Avropanın qovuşuğunda yerləşən Azərbaycanın nəqliyyat dəhlizi kimi önəmini daha da artırıb. Beləliklə, Avrasiya məkanının mühüm logistik mərkəzlərindən birinə çevrilən Azərbaycan həm də öz tranzit imkanlarını artırmağa yol açan yeni təşəbbüslərin müəllifidir. Bu təşəbbüslərdən biri Bakı-Tbilisi-Qars dəmir yolu layihəsidir. Tarixi İpək yolunun bərpası çərçivəsində nəqliyyat infrastrukturunun təkmilləşdirilməsində böyük addım olan bu layihənin Prezident İlham Əliyevin böyük siyasi iradəsi sayəsində uğurla reallaşması Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yeni səviyyədə inkişafına şərait yaradır. Ən əsası bu dəmir yolu bağlantısı nəqliyyatın inkişafında yeni mərhələnin başlanması deməkdir. Çünki iqtisadi baxımdan səmərəli, dayanıqlı, təhlükəsiz və ekoloji normalara tam cavab verəcək BTQ dəmir yolu xətti Şərq-Qərb nəqliyyat dəhlizinin əsas elementlərindən olmaqla Avrasiyada ticarət-iqtisadi münasibətlər sahəsində sıx əməkdaşlığa, regionda sosial-iqtisadi artımın sürətlənməsinə, eləcə də ölkələrin qlobal səviyyədə əməkdaşlığının genişlənməsinə böyük töhfə verəcək.

Onu da qeyd edim ki, BTQ dəmir yolu xətti Azərbaycanın beynəlxalq səviyyəli tranzit və logistika mərkəzinə çevrildiyinin növbəti əyani sübutudur. BTQ dəmir yolu ilə yük və sərnişinlərin Avropa və Asiyaya çatdırılması ilə yanaşı, ixrac mallarının Azərbaycan ərazisindən tranzitinin artmasına, Xəzər hövzəsi regionunun Avropa ilə bilavasitə nəqliyyat əlaqələrinin qurulmasına, Avropaya inteqrasiya proseslərinin sürətlənməsinə, əmtəə və xidmətlərin nəqli yollarının diversifikasiyasına xidmət edəcək, Azərbaycanın və region dövlətlərinin xarici iqtisadi əlaqələrinin səmərəliyini daha da yüksəldəcək. Beləliklə, bu dəmir yolu Avropa və Asiya ölkələri arasında yüklərin daşınmasında əvəzsiz rol oynamaqla bərabər, Azərbaycanın tranzit ölkə kimi əhəmiyyətini daha da artıracaq.

Prezident İlham Əliyevin açılış mərasimindəki nitqində qeyd etdiyi kimi: *"Bakı-Tbilisi-Qars tarixi layihədir, qlobal layihədir. Bu layihə ölkələri bir-birinə daha yaxın edəcək. Bu layihə bölgədə sabitliyin, təhlükəsizliyin təminatı işində öz rolunu oynayacaq. Bu layihə bizim iqtisadi imkanlarımızı artıracaq və biz böyük vəsait əldə edəcəyik. Əlbəttə, bir daha demək istəyirəm ki, bu layihənin həyata keçirilməsi ancaq Azərbaycan, Gürcüstan və Türkiyənin birgə səyləri hesabına mümkün olmuşdur. Biz heç bir yerdən heç bir yardım, heç bir kredit almadıq, öz daxili imkanlarımız hesabına bu yolu tikdik və bu gün istifadəyə veririk".*

Oktyabrın 30-da keçirilən BTQ dəmir yolu xəttinin açılış mərasimində Azərbaycan, Türkiyə və Gürcüstanla yanaşı, digər ölkələrin də rəsmi nümayəndə heyətlərinin iştirakı təsdiqlədi ki, BTQ dəmir yolu xəttinin istifadəyə verilməsi təkcə Azərbaycan və region dövlətləri üçün deyil, qlobal əhəmiyyətli tarixi hadisədir.

Azərbaycanın tranzit potensialının reallaşdırılması ölkəmizin iqtisadi diversifikasiya siyasətində əsas yerlərdən birini tutur. Prezident İlham Əliyevin qarşıya qoyduğu əsas məqsədlərdən biri də ölkəmizin tranzit mərkəzinə çevrilməsini tam təmin etməkdir. BTQ dəmir yolu xətti də qeyd etdiyim kimi, məhz Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi və böyük əməyi sayəsində reallığa çevrildi. Bu illər ərzində layihənin icrası daim Azərbaycan Prezidentinin diqqətində olmuşdur. Ona görə də BTQ dəmir yolu xəttinin istismara verilməsi ilk növbədə müəllifi Prezident İlham Əliyev olan böyük tarixi uğurumuzdur.

Tarixi İpək yolu üzərində geniş iqtisadi zolağın yaradılmasının fəal dəstəkçisi olan respublikamız digər dəhlizlərlə müqayisədə yüklərin Azərbaycan ərazisindən keçməklə müxtəlif istiqamətlərə tranzit daşımalarının səmərəli təşkilinə etibarlı təminat verir, daha əlverişli şərtlərlə qısa müddətdə, təhlükəsiz və vaxtında çatdırılmasına, tranzit daşımalarının həcminin dəfələrlə artmasına imkan yaradır. Bunun nəticəsidir ki, ildən-ilə Azərbaycan ərazisindən tranzit yükdaşımaçılığı artmaqdadır. Təbii ki, Azərbaycan ərazisindən beynəlxalq yüklərin daşınmasının çoxalması ölkəmizdə tranzit imkanlarının artırılması istiqamətində qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsindən xəbər verir. Prezident İlham Əliyevin sayəsində həyata vəsiqə alan BTQ dəmir yolu xətti isə bu sahədə ölkəmizin imkanlarını daha da artırır. Bu isə nəticə etibarilə ölkəyə əlavə valyuta axınının, o cümlədən ölkəmizin ixrac-idxal əməliyyatlarının artması deməkdir. Bu dəmir yolunun işə salınması ticarət-iqtisadi münasibətlərin daha da möhkəmlənməsinə, tranzit və iqtisadi potensialın əhəmiyyətli dərəcədə artmasına imkan yaradacaq, bütövlükdə bütün regionun tərəqqisinə təkan verəcək.

Strateji əhəmiyyət daşıyan Bakı-Tbilisi-Qars dəmir yolu tarixi böyük İpək yolunun bərpası istiqamətində görülən işlərə çox qiymətli töhfədir. Çünki genişmiqyaslı Şərq-Qərb nəqliyyat dəhlizinin mühüm bəndinə çevriləcək Bakı-Tbilisi-Qars dəmir yolu Çin ilə Avropa arasında ən qısa dəmir yolu dəhlizi yaratmağa imkan verəcək.

Azərbaycanın regionda lider statusunu möhkəmləndirən mühüm faktor

Aydın HÜSEYNOV,
Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü:

- Azərbaycanın geridə qalan 26 illik müstəqillik tarixi milli dövlətçiliyimizin qüdrətlənməsi baxımından olduqca möhtəşəm uğurlarla əlamətdardır. Hələ 1994-cü ildə ulu öndər Heydər Əliyevin böyük siyasi uzaqgörənliyi sayəsində imzalanan "Əsrin müqaviləsi" o illərdə Azərbaycanın müstəqilliyini və dünya birliyindəki yerini möhkəmləndirdi, ölkəmizin iqtisadi inkişafına rəvac verdi. Bu gün isə Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkəmizin həyata keçirdiyi qlobal layihələr Azərbaycanı Qafqazın liderinə, dünyanın sayılıb-seçilən dövlətinə çevirib.

Hələ 3 il əvvəl - "Əsrin müqaviləsi"nin imzalanmasının 20-ci ildönümündə Azərbaycanın təşəbbüsü ilə yeni qlobal enerji layihəsinin "Cənub qaz dəhlizi"nin təməli qoyuldu. Dörd hissədən ibarət olan bu layihənin icrası ötən qısa müddətdə sürətlə icra olunub. "Şahdəniz-2" layihəsi 98 faiz, Cənubi Qafqaz kəməri 99 faiz, TANAP 84 faiz, TAP isə 60 faizə yaxın icra olunub. Bu layihənin tam başa çatmasından sonra neftimizlə bərabər Xəzərdən hasil edilən təbii qaz da Avropa bazarlarına qədər gedib çıxacaq.

2017-ci il Azərbaycanın tarixində qlobal miqyaslı nailiyyətlərlə zəngindir. Bunlardan biri bu ilin sentyabrında imzalanan yeni neft müqaviləsidir. "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının işlənilməsi üzrə xarici neft şirkətləri ilə imzalanan yeni sazişin nəticəsi olaraq növbəti 32 il müddətində bu yataqlara 40 milyard dollardan artıq sərmayə qoyulacaq. Prezident İlham Əliyevin "daha əlverişli, daha üstün, daha genişmiqyaslı" hesab etdiyi yeni kontraktın siyasi əhəmiyyəti böyükdür, həmçinin ölkəmizin beynəlxalq mövqeyinin yüksəldilməsinə əvəzsiz töhfələri indidən aydın görünür. Belə ki, Azərbaycanın 2050-ci ilədək dünya neft bazarında, yeni enerji xəritəsinin müəyyənləşməsində, Avropanın enerji təhlükəsizliyinin təminatında əsas söz sahiblərindən biri olması statusu davam edəcək. Bununla yanaşı, neft, eləcə də qaz kəmərlərinin gərəkliyi daha da yüksələcək, rentabelliyi artacaq. Qafqazın liderinə çevrilən Azərbaycan daha əlverişli olan XXI əsrin müqaviləsi ilə artıq Şərqi Avropa, MDB, həmçinin Qərbi Asiya məkanının aparıcı iqtisadi-siyasi güclərindən biri kimi çıxış edəcək.

Azərbaycanın ötən onillikdə ən böyük uğurlarından biri təbii ki, qeyri-neft sektorunun inkişaf etdirilməsi üçün həyata keçirdiyi islahatlardır. Bu dövrdə ölkəmizin tranzit imkanlarının artırılması üçün həyata keçirilən layihələr də neft gəlirlərindən asılılığın azaldılması istiqamətində olduqca mühüm əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, tarixi İpək yolunun keçdiyi Azərbaycanın yerləşdiyi ərazi bütün dövrlərdə Avropa və Asiyanı, uzaq dövlətləri birləşdirən, strateji ticari-iqtisadi dəhlizlərin qovuşduğu məkanlardan biri olub. Qeyd edim ki, müasir dövrdə ölkələr arasında əlaqələrin məzmunu dəyişikliklərə məruz qalsa da, ticari və iqtisadi dəhlizlərin əhəmiyyəti öz aktuallığını yenə də qoruyub saxlayır. Xüsusən qloballaşan dünyamızın yeni geoiqtisadi çağırışları kontekstində ölkəmizin bu sahədə rolu artaraq strateji əhəmiyyət kəsb edir.

Bütün bunları böyük uzaqgörənliklə qiymətləndirən Prezident İlham Əliyevin təşəbbüsləri ilə ölkəmizdə nəqliyyat infrastrukturunun inkişafı, tranzit potensialının artırılması istiqamətində bir sıra irimiqyaslı layihələr həyata keçirilib, bu sahəyə irihəcmli dövlət investisiyaları yönəldilib. Bakıda və ölkə regionlarında beynəlxalq hava limanlarının, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri istiqamətində beynəlxalq əhəmiyyətli avtomobil yollarının tikintisi və dəmir yolu xətlərinin yenilənməsi ölkənin xarici iqtisadi əlaqələrinin genişlənməsində mühüm rol oynayır.

Oktyabrın 30-da açılışı olan və 2017-ci ilin növbəti mühüm uğuru kimi tariximizə yazılan Bakı-Tbilisi-Qars dəmir yolu xətti Azərbaycanın tranzit imkanlarının daha da genişlənməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Öncə onu qeyd edim ki, bu layihənin müəllifi Prezident İlham Əliyevdir. Çünki BTQ-nin layihədən reallığa çevrilməsi məhz Azərbaycan Prezidentinin siyasi iradəsi sayəsində mümkün oldu. Məlum olduğu kimi, belə bir layihə ilə bağlı söhbətlər hələ ötən əsrin 90-cı illərindən başlamışdı. Lakin ortada siyasi iradə və konkret təşəbbüs yox idi. İlk dəfə olaraq 2004-cü ildə Prezident İlham Əliyev Gürcüstana səfəri zamanı ölkəmizin BTQ layihəsini dəstəklədiyini bəyan etdi. Beləliklə, Prezident İlham Əliyevin təşəbbüsü və ölkəmizin maliyyə dəstəyi ilə bu layihə həyata vəsiqə aldı. Yaxşı xatirimizdədir ki, vaxtilə ABŞ və Avropa İttifaqı Ermənistandan kənar keçdiyinə görə BTQ layihəsinə qarşı çıxaraq tikintinin maliyyələşdirilməsindən imtina etdilər. Amma Azərbaycan yolundan çəkilmədi və layihənin maliyyələşdirilməsini öz üzərinə götürdü. Beləliklə, Azərbaycan qlobal əhəmiyyət daşıyan BTQ dəmir yolu xəttinin çəkilməsi ilə Ermənistanın izolyasiyasını bir az da artırdı.

Tarixi İpək yolunun bərpası çərçivəsində nəqliyyat infrastrukturunun təkmilləşdirilməsində böyük addım olan bu layihə Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin yeni səviyyədə inkişafına şərait yaradacaq. Beynəlxalq standartlara uyğun tikilən bu dəmir yolu yüklərin və sərnişinlərin fasiləsiz, vaxtında və təhlükəsiz daşınmasını təmin edərək daşımaların həcminin artmasına, tariflərin əhəmiyyətli dərəcədə azalmasına gətirib çıxaracaq, nəqliyyat infrastrukturunun geniş miqyasda inkişafına, nəqliyyat əlaqələrinin səmərəliyinin artmasına, beynəlxalq bazarlara daha əlverişli çıxışın təmin olunmasına əlverişli şərait yaradacaq. BTQ dəmir yolu xəttinin istismara verilməsi ilə Avropadan Asiyaya və əksinə konteyner-vaqon daşımaları daha da sürətlənəcək və əlavə vaxt itkisinin qarşısı alınacaq. Bu isə beynəlxalq daşımalarda mühüm rol oynayır.

Beləliklə, BTQ dəmir yolu bağlantısının uğurla reallaşması ilə Azərbaycanın tranzit imkanlarının genişlənməsi baxımından yeni mərhələ başlayır. Çünki bununla Azərbaycan gələcəyə hesablanmış daha bir möhtəşəm addım atır. BTQ-nin işə düşməsi nəticəsində Azərbaycanın tranzitdən gələn gəlirləri əhəmiyyətli dərəcədə artacaq, ölkəmiz loqistik mərkəz kimi mövqelərini daha da möhkəmləndirəcək. Ən əsası isə gətirəcəyi bütün iqtisadi dividendlərlə yanaşı, Prezident İlham Əliyevin müəllifi olduğu BTQ Azərbaycanın regionda söz sahibi statusunu və dünyadakı mövqelərini möhkəmləndirən mühüm faktordur.

Avropa ilə Asiyanı birləşdirən körpü

Mahir ABBASZADƏ,
Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü:

- Müasir dövrdə dünyanın hər yerində sərnişin və beynəlxalq yükdaşımaları sahəsində ciddi rəqabət var. Çünki ölkələr arasında əlaqələrin məzmunu nə qədər dəyişikliklərə məruz qalsa da, ticari və iqtisadi dəhlizlərin əhəmiyyəti də öz aktuallığını daim qoruyub saxlayır. Belə şəraitdə böyük tranzit potensialına malik Azərbaycan müşahidəçi mövqeyində dayana bilməz. Prezident İlham Əliyevin qarşıya qoyduğu əsas məqsədlərdən biri ölkəmizin tranzit mərkəzinə çevrilməsini tam təmin etməkdir.

Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşir və bu baxımdan əlverişli geostrateji mövqeyə malikdir. Bunu nəzərə alaraq, ölkəmizdə nəqliyyat infrastrukturunun inkişafı, tranzit potensialının artırılması istiqamətində bir sıra irimiqyaslı layihələr həyata keçirilib, bu sahəyə irihəcmli dövlət investisiyaları yönəldilib.

Müəllifi Prezident İlham Əliyev olan Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xəttinin tikintisinin başa çatması isə Azərbaycanın tranzit imkanlarını daha da artıracaq. BTQ iqtisadi və siyasi əhəmiyyətinə görə Afrika ilə Asiyanı birləşdirən Süveyş kanalı kimi titanik layihələrlə müqayisə oluna bilər. Çünki bu dəmir yolu xəttinin istismara verilməsi ilk növbədə əvvəldə qeyd etdiyimiz kimi, tarixi İpək yolunun bərpası istiqamətində indiyədək atılan ən mühüm addımdır. Çünki BTQ dəmir yolu xətti ilə Çindən Avropaya və əksinə yükdaşımaları zamanı vaxt itkisinin, eyni zamanda əlavə maliyyə sərfinin qarşısı xeyli alınacaq. Düzdür, ilk vaxtlarda ABŞ və digər Qərb dövlətləri bu layihəyə isti yanaşmadılar. Ona görə layihəni əvvəldən axıra kimi Azərbaycan öz daxili imkanları ilə maliyyələşdirdi. Lakin bu gün Qərb dünyası BTQ dəmir yolunun nə qədər tarixi və iqtisadi əhəmiyyət kəsb etdiyini anlayır. Ona görə də hazırda BTQ Avropa İttifaqı, ABŞ və Mərkəzi Asiya dövlətləri tərəfindən dəstəklənir.

Müstəqillik tariximizin möhtəşəm layihələrindən birinin reallaşmasına rəhbərlik etməklə Prezident İlham Əliyev növbəti dəfə təsdiqlədi ki, ölkəmiz regional və qlobal əhəmiyyətli layihələri uğurla həyata keçirə bilər. Bunu Bakı-Tbilisi-Qars dəmir yolunun geosiyasi və geoiqtisadi səmərəsinə nəzər saldıqda da görürük. Belə ki, bu dəmir yolu xəttinin işə düşməsi regionda sabitliyə və iqtisadi inkişafa böyük töhfədir və onun imkanları sayəsində Azərbaycan, Gürcüstan və Türkiyə mühüm tranzit qovşağına çevrilir. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin perspektivlərindən danışarkən qeyd etməliyik ki, Asiyada yüklərin əsas yaranış ölkəsi olan Çin artıq bu xəttə böyük maraq göstərir. Bu layihə Qazaxıstan üçün də səmərəlidir. Çünki bu yol Türkiyənin Mersin limanı vasitəsilə Aralıq dənizi regionuna çıxışı təmin edir. Odur ki, bu dəmir yolu xətti Transavropa və Transasiya dəmir yolu şəbəkələrinin birləşməsində çatışmayan bağlantını tamamlayır, bununla da Avropa ilə Asiya arasında daşımalarda yekun bənd kimi çıxış edir. Bu layihənin tarixi İpək yolu üzərində qurulması region ölkələri üçün onun cəlbediciliyini artırır və eyni zamanda, bu coğrafiyada yerləşən türkdilli ölkələrin inteqrasiyasında mühüm əhəmiyyət daşıyır. Bakı-Tbilisi-Qars dəmir yolu Mərkəzi Asiya ölkələrinin - Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistan, həmçinin Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdırır.

Proqnozlara görə, Bakı-Tbilisi-Qars dəmir yolu ilə üçüncü istismar ilində 3-5 milyon ton, beşinci istismar ilində 6-8 milyon ton yük, bundan sonra isə ildə 2 milyon sərnişin və 17 milyon ton yük daşınacaq. Bu dəmir yolu ilə bir günə Qarsa, iki gün yarıma isə İstanbula getmək mümkün olacaq. Bu isə regionda turizmin inkişafına güclü təsir göstərəcək. Bütün bunlar Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin əhəmiyyətini, onun təhlükəsizliyini, etibarlılığını, sürət və vaxt tezliyini aydın göstərir. Belə ki, bu yol istifadəyə verilməndən sonra mövcud yükdaşımalarla müqayisədə zaman fərqi iki dəfəyədək azalacaq.

Avropa ilə Asiyanı birləşdirən və dünyanın 100 böyük layihəsi siyahısına daxil olan Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin inşası xüsusi strateji əhəmiyyət daşıyır. Çünki Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin işə düşməsi Azərbaycanın dövlət müstəqilliyinin gücləndirilməsində, iqtisadi qüdrətinin artırılmasında yeni mühüm strateji amildir. Bu, həm də layihənin icrasında nadir əməkdaşlıq formatı göstərən üç ölkə - Azərbaycan, Gürcüstan və Türkiyə arasındakı əlaqələrin strateji təzahürünü bütün dünyaya nümayiş etdirir. Ən əsası isə bu dəmir yolunun işə düşməsi regionda sabitliyə, xalqlarımızın daha da yaxınlaşmasına və iqtisadi inkişafa ən böyük töhfədir. Bu töhfənin təməlində Azərbaycan, Gürcüstan və Türkiyənin sarsılmaz dostluğu və qardaşlığı dayanır.

Azərbaycan ərazisindən keçən tranzit marşrutlar daha çox iqtisadi potensiala malikdir. Bu sahədə görülən işlər son illərdə ölkəmizin regionda nəqliyyat-logistika qovşağına çevrilməsinə töhfə verib. Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi də göstərir ki, Azərbaycan hökumətinin bu istiqamətdə gələcək hədəfləri göstərən konkret siyasəti var. Bu hədəflər regional tranzit yüklərin cəlb edilməsi ilə yanaşı, həmin yüklər üzərində əlavə dəyərin yaradılmasına nail olmaq, regionda bu sahə üzrə daha cəlbedici ölkə olmaq və mühüm qovşağa çevrilməkdir. Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin timsalında reallıq ölkəmizin bu hədəflərə doğru inamla irəlilədiyini göstərir.

Rəşad BAXŞƏLİYEV,
Rəşad CƏFƏRLİ,
"Azərbaycan"